MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 75**
**ORCID: 0009-0007-5043-1537**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0199**

**Nərmin Kərimli Muxtar qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**Doktorant**
**narmin.kerimli.93@mail.ru**

# TƏSVİRİ SƏNƏTDƏ AVTOPORTRET

**Xülasə:** Məqalədə insanın özünüifadə forması kimi avtoportret janrının tarixi inkişafı və sənətkarın daxili dünyasının sənət vasitəsilə təqdim olunması prosesi araşdırılır. Həmçinin, məqalədə avtoportretin yalnız xarici görünüşün təsviri ilə məhdudlaşmadığı, eyni zamanda sənətkarın emosional vəziyyəti, sosial mövqeyi və şəxsiyyət anlayışını əks etdirdiyi vurğulanır. Müəllif qədim dövrlərdən müasir dövrə qədər olan nümunələrə əsaslanaraq, avtoportretin sənətdə bir özünü tanıma və izah etmə vasitəsi kimi xüsusi rol oynadığını qeyd edir. Nəticədə, avtoportretin təkcə təsviri sənətin deyil, həm də psixoloji və fəlsəfi özünüifadə formasının ayrılmaz hissəsi olduğu göstərilir.

**Açar sözlər:** təsviri sənət, tarixi avtoportret, özünüifadə, portret janrı, fərdi üslub, özünü tanıma.

Avtoportret – rəssamın təkcə öz simasını deyil, şəxsiyyətini, dünyagörüşünü, yaşadığı dövrün sosial və mədəni kontekstini bizə təqdim etdiyi güzgüdür. Avtoportret sənət tarixində yüz illərlə öz yerini qoruyub saxlamışdır. İlk avtoportret nümunəsi tarixdə çox qədim dövrlərə – e. ə. XIV əsrə Firon Akhenatonun dövrünə aid olan saray heykəltəraşı Bek və onun həyat yoldaşı Taheretin birgə heykəlidir. Bu erkən nümunə bizə göstərir ki, insan özünü təsvir etməyə çox qədim zamanlardan maraq göstərib. Lakin avtoportretin bir ifadə forması, fərdi sənət nümunəsi kimi inkişafı İntibah dövründə baş verir. Bu dövrdə artıq insan, onun şəxsiyyəti, emosiyaları və fərdi baxışı sənətin mərkəzinə çevrilir.

Orta əsrlərdə rəssamlar yalnız zadəganların sifarişlərini yerinə yetirirdilər. Şəxsi portret, xüsusilə avtoportret, qeyri-adi sayılırdı. Rəssamlar anonim idi, onların fərdiliyi ön planda deyildi. Amma İntibah dövründə bu dəyişdi. Rəssam

artıq yaradıcı şəxsiyyət kimi qəbul olunmağa başladı və bu özünü avtoportretlərdə göstərdi. Bundan əlavə, əgər Orta əsrlərdə insan həyatı daha çox axirətə hazırlıq kimi görülürdüsə, İntibahla birlikdə humanist ideyalar sənətə daxil olur və rəssamın özü sənətin mövzusuna çevrilməyə başlayır. Sandro Bottiçellinin, Rafael Santi, Leonardo da Vinçinin, Mikelanjelonun, Tisianın və digər rəssamların yaradıcılığında avtoportretləri görə bilərik. Onlarının avtoportretlərində sənətdə şəxsi ifadənin güclü forması təzahür olunur.

Sənətşünas Qraşenkov erkən İntibah dövrünün avtoportretləri haqqında yazır ki, tamaşaçıya birbaşa baxış, güzgü vasitəsilə yaranan qeyri-təbii asimmetriya – bunlar çoxfiqurlu kompozisiyalardakı avtoportretlərin ayırd edici xüsusiyyətləridir. Məsələn, Sandro Bottiçellinin "Sehrbazlara pərəstiş" əsərinin ön tərəfində, sağ küncdəki bir fiqurun - tamaşaçıya birbaşa baxan bir kişinin – S.Botiçellinin özü olduğu güman edilir. Bu fiqurun üzü çox fərqlidir, və digər personajlardan fərqli olaraq izləyici ilə göz kontaktı qurur. Bu, çox vaxt avtoportretlərdə rast gəlinən bir xüsusiyyətdir.

Avtoportret deyəndə ilk ağıla gələn rəssamlardan biri Qərbi Avropa İntibahının ən görkəmli ustalarından biri olan Albrext Dürerdir. Onun avtoportretləri təkcə öz dövrünün deyil, bütövlükdə sənət tarixinin zirvəsi hesab edilir. Dürer özünü bəzən müqəddəs obraz kimi təqdim edirdi və bu, dövrünün estetik və dini anlayışlarına da işarə edirdi. onun 14 yaşında təsvir etdiyi avtoportretində həyata yeni başlayan gəncin sakitliyini görürüksə, zamanla işlədiyi digər avtoportretlərdə özünü sınamış və özündən əmin olan yetkin bir insanı görürük.

İntibahdan sonra da Barokko, Rokoko və Neoklassizm dövrlərində də rəssamların yaradıcılığında avtoportret geniş yayılmışdı. Mannerist rəssam El Qrekonun avtoportretləri ilə yanaşı, sonradan ispan sənətkarları Velaskes və Surbaran, fransız akademik rəssamı Nikola Pussen, Flamand sənətkarları Rubens, Antoni van Deyk və dahi holland sənətkarı Rembrant van Reynin avtoportretləri təsviri sənət tarixində əvəzedilməz yerə sahibdir. Qeyd edək ki, Barokko dövrünün avtoportretləri təntənəli ifadə tərzi, təmtəraqlı, güclü işıq-gölgə kontrastları ilə seçilir. Avtoportret bu dövrdə artıq təkcə özünü tanımaq yox, özünü göstərmək və təqdim etmək vasitəsinə çevrilmişdi.

XVII əsrin görkəmli ispan rəssamı və Barokko dövrünün ən tanınmış sənətkarlarından biri olan Velaskesin "avtoportret" olaraq tanınan rəsmləri çox azdır və bəzi hallarda bu rəsmlərin həqiqətən avtoportret olub-olmadığı barədə mübahisələr var. Bununla belə, bəzi məşhur əsərlərində özünü təsvir etmişdir. "Nədimələr" Velaskesin ən məşhur əsərlərindən biridir Velaskes burada həm də özünü rəsmin sol tərəfində, əlində fırça ilə təsvir etmişdir. bu, bəlkə də onun ən məşhur avtoportreti hesab olunur. Bu əsər təkcə bədii baxımdan deyil, fəlsəfi baxımdan çox qiymətlidir. Burada sənətkarın sənətdəki rolu, baxış bucağı və təsviri sənətdə realizm anlayışı kimi məsələləri ortaya qoyulur.

Portret ustalarından biri də Rembrandt van Reyndir. O avtoportreti daha əvvəl olmadığı qədər zirvəyə daşımışdır. Onun avtoportretləri dərin müşahidə, emosional səmimiyyət və özünü tanıma cəhdləri ilə doludur. Rembrandt öz portretlərini idealizə etmir, əksinə – həyatın bütün izlərini, üzündəki qırışları, ağrıları və zamanın təsirini açıq şəkildə göstərirdi.

Onun avtoportretləri olduqca çoxdur. Məsələn, həyat yoldaşı Saskiya ilə birgə portretində rəssam daha zəngin və xoşbəxt görünür. Amma sonrakı dövrlərdə təsvir etdiyi avtoportretlərdə artıq maliyyə çətinlikləri, şəxsi itkilər və kədər onun üzündə hiss olunur. Belə bir dövrdə Rembrantın çəkdiyi bu avtoportretlərdə onun bütün bu çətinliklərinə baxmayaraq sevdiklərinin ölümünü görmüş, yetkin, peşəkar, təcrübəli biri olduğunu üzündən, baxışlarından şahid ola bilirik.

İmpressionistlər üçün isə avtoportret sadəcə zahiri görünüşü əks etdirmək deyil, hissi vəziyyəti, ani ruh halını, işıq və rəngin insan üzərindəki təsirini göstərmək idi. Yəni, İmpressionistlərin avtoportretləri özlərini tanımaqdan daha çox, hiss etdiklərini ifadə etmək cəhdidir. Onlar güzgüdə özlərinə baxmaqdan çox**,** güzgünün işığı necə əks etdirdiyinə maraq göstərirdilər. Bu da avtoportreti onlarda şəxsi bir eksperiment**,** sənət baxışı ilə özünü araşdırmaq forması halına gətirdi. Postimpressionist rəssamlar Pol Sezan, Pol Qoqen, Vinsent van Qoq, Anri de Tuluz-Lotrek həmçinin, rus rəssamları İlya Repin**,** İsaak Levitan **və** Konstantin Korovin, Valentin Serov, Zinaida Serebryakova və digərlərinin yaradıcılığında olan avtoportretlərin hər biri müəlliflərinin təkrarlanmaz hisslərini, düşüncələrini və daxili vəziyyətini aydın şəkildə göstərir.

XX-XXI əsrlərdə avtoportretlər isə daha çox eksperimental xarakter daşıyırdı və simvolik məna qazanmışdır. Müasir rəssamlar avtoportreti bir tədqiqat vasitəsi, özünüifadə forması və cəmiyyətə tənqidi baxış kimi istifadə edirlər. Bu dövrün seçilən avtoportretlərinin müəllifləri Anri Matiss, Mark Şaqal, Edvard Munk, Kazimir Maleviç, Frida Kahlo, Pablo Pikasso, Salvador Dali, Frensis Bekon, Endi Vorhol və digərləri idi. Adı çəkilən rəssamlarının avtoportretlərinin hər biri özünəməxsus və təkrarsız yanaşma ilə seçilir. Bu avtoportretlər təkcə öz fiziki görünüşünü əks etdirmir, həm də dövrün bədii istiqamətlərinin inkişaf mərhələlərini**,** müəlliflərinin şəxsi psixoloji vəziyyətlərini **və** sənət axtarışlarını bədii şəkildə izah edir.

Əsrin orijinal və özünəməxsus rəssamlarından biri olan Frida Kahlo idi və onun öz daxili aləmini cəsarətli və azad şəkildə təqdim etdiyi avtoportretləri onun yaradıcılığına böyük uğur qazandırmışdır. Rəssam Frida Kahlo avtoportretlərindəki məkan təsvirlərinin fərqliliyi və orijinallığı baxımından araşdırılmağa layiqdir. Tez-tez müraciət etdiyi və yaradıcılığının böyük bir hissəsini təşkil edən avtoportretlərində onun öz həyatının fiziki və emosional sarsıntılarının izlərini görmək mümkündür. Frida Kahlonun uşaqlıq illərində başlayan həyata tutunmaq mübarizəsi onun bütün həyatına və sənət həyatına təsir edən bir davamlılığa çevrilərək onu dövrünün əsasını qoyan və əhəmiyyətli rəssamlarından birinə çevirdi. Fridanın əsərlərində mühüm yer tutan avtoportretlər onun öz bədənində yer edən ağrıları təmsil etmək üçün bir vasitə kimi istifadə edilmişdir. Bir sözlə, Frida özünü və daxili dünyasını ifadə etmək üçün avtoportretlərdən istifadə edirdi. Onun daxili hissləri simvolik əşya və obrazlarla birləşdirən avtoportretləri əks etdirdiyi reallıqla rəssamın daxili dünyasına səyahət əsəri kimi qiymətləndirilir.

Azərbaycan təsviri sənətində də avtoportret olduqça geniş yayılmışdır. Erkən avtoportretlərdən biri Bəhruz bəy Kəngərliyə aiddir. Bu dövrdə realist təsvir üsulları üstünlük təşkil edirdi və sənətkarlar daha çox klassik portretlər işləyirdi. Sovet dövründə rəssamlar daha çox ideoloji tələblərə uyğun əsərlər yaratsalar da, avtoportret janrı bəzən daxili azadlıq ifadəsi kimi istifadə olunurdu. Maral Rəhmanzadə, Vəcihə Səmədova, Tağı Tağıyev, Əyyub Hüseynov, Böyükağa Mirzəzadə, Altay Hacıyev, Arif Hüseynov, Toğrul

Nərimanbəyov, Rasim Babayev, Çingiz Fərzəliyev, Tofiq Ağababayev, Kamal Əhməd və başqa sənətkarların yaradıcılığındakı avtoportretlər rəssamların həm öz sənət yolunu, öz daxili dünyalarını, yanaşmalarını, yaradıcılıq üslubunu, o cümlədən də zamanın reallıqlarını əks etdirir. Bu nümunələrin hər birində insanın öz iç dünyasına səyahətini izləmək olar.

Nəticə olaraq, avtoportret həm tarix, həm psixologiya, həm də sənət baxımından çoxqatlı bir anlayışdır. O, bizə göstərir ki, insan həmişə özünü tanımağa çalışır və sənət bu axtarışın ən güclü vasitələrindən biridir. Avtoportret – sənətçinin özünə verdiyi sualların cavabıdır. Bu suallar zamanla dəyişsə də, "Mən kiməm?" sualı həmişə sənətin mərkəzində qalacaq.

## Ədəbiyyat siyahısı

1. Salamzadə Ə., Rzayev N., Kərimov K., Əfəndiyev R., Həbibov N. (1977). Azərbaycan incəsənəti. Bakı: Maarif nəşriyyatı. s. 212.
2. Виппер Б.Р. (1977). Итальянский Ренессанс XIII-XVI вв. М.,. т. 1-2.

**Нармин Керимли Мухтар кызы**

## Автопортрет в изобразительном искусстве

### Резюме

В статье исследуется историческое развитие жанра автопортрета как формы самовыражения человека, а также процесс представления внутреннего мира художника посредством искусства. Отмечается, что автопортрет не ограничивается лишь изображением внешности, но также отражает эмоциональное состояние, социальное положение и понимание личности художника. Автор, опираясь на примеры от древних времён до современности, подчёркивает особую роль автопортрета как средства самопознания и самовыражения в искусстве. В результате показано, что автопортрет является неотъемлемой частью не только изобразительного искусства, но и психологической и философской формы самовыражения.

**Ключевые слова:** изобразительное искусство, исторический автопортрет, самовыражение, жанр портрета, индивидуальный стиль, самопознание.

**Karimli Narmin Mukhtar gizi**

## Self-Portrait in Fine Art

### Summary

The article explores the historical development of the self-portrait genre as a form of human self-expression, as well as the process of presenting the artist's inner world through art. It emphasizes that the self-portrait is not limited to depicting physical appearance but also reflects the artist's emotional state, social status, and understanding of identity. Based on examples from ancient times to the modern era, the author highlights the unique role of the self-portrait as a means of self-exploration and self-expression in art. As a result, it is shown that the self-portrait is an integral part not only of visual art but also of psychological and philosophical forms of self-expression.

**Key words:** visual art, historical self-portrait, self-expression, portrait genre, individual style, self-exploration

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 29.04.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 05.05.2025***
***Ekspert rəyi: Aslan Xəlilov***